Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003016 – Rəngkarlıq ixtisasının**
**Səhnəqrafiya ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003016 – Rəngkarlıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.
- müəllif hüququ və peşə etikasını bilmək və fəaliyyətində tətbiq etmək; o rəngkarlıq sənəti ilə sənətşünaslıq elminin prinsiplərinə, o cümlədən kompozisiya, forma, rəng (kolorit) və perspektiv prinsiplərinə əsaslanaraq rəngkarlıqda janr, mövzu dairəsini genişləndirmək;
- yeni tip bədii təfəkkürü formalaşdırmaq; o abstrakt təfəkkürün yenilənməsini, ənənə və millilik problemlərini bilmək; o rəngkarlıq sənətində müasir inkişaf tendensiyalarını bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***Səhnəqrafiya ixtisaslaşması üzrə:***

- səhnəqrafiyanın müasir inkişaf tendensiyalarını bilmək və peşəkar fəaliyyətində istifadə etmək;
  - verilmiş mövzu ilə əlaqədar səhnə tərtibatını təhlil edə bilmək.
- səhnə məkanında vizual konsepsiyanı müəyyən edə bilmək;
- səhnə məkanında əsərlərinin estetik strukturunu dərindən anlamaq və vizual həlləri peşəkar şəkildə hazırlamaq;
- dekorasiyanın kompozisiyasını, rəng-palitra münasibətlərini, forma və məkan yerləşimini planlaşdıraraq, vizual ardıcıllıq və ritm yaratmağı bacarmaq;
- hadisələrin səhnə məkanında quruluşunu və ardıcıllığını peşəkarcasına təhlil edərək səhnə əsərinə estetik bütövlük və simvolik məna qazandırmağı bacarmaq;
- səhnə tərtibatının əsaslarını bilərək səhnəni qurmağı bacarmaq (eskiz, maket yaratmaq, işıq və səslə işləmək bacarığı).
- dünya və Azərbaycan teatr tarixində formalaşmış səhnə tərtibatı üslublarını, tarixi geyim və məkan estetikasını təhlil edə bilmək;
- müxtəlif dövrlərin estetik xüsusiyyətlərinə əsaslanaraq dekorasiya, kostyum və səhnə mühitinin bədii quruluşunu yaratmaq və onları müasir texniki vasitələrlə tətbiq etmək;
- teatr və digər səhnə quruluşlarına dair müasir tendensiyaları bilmək və təcrübədə tətbiq etmək;
  - səhnə sənəti layihələrinin (tamaşa, performans, müasir incəsənət üzrə installyasiya, konsert səhnəsi və s.) yaradıcı və texniki aspektlərini planlaşdırmağı və koordinasiya etməyi bacarmaq;
  - səhnə maketlərini və dekorasiya eskizlərini hazırlayaraq vizual tərtibatın ilkin mərhələlərini formalaşdırmağı, layihənin bədii məqsədlərinə uyğun konsepsiya hazırlamağı və onun icrasına nəzarət etməyi bacarmaq;
- səhnə üzrə rəssam peşəkar olaraq işçi heyətlə effektiv əməkdaşlıq qurmaq, resursların bölgüsünü planlaşdırmaq və layihənin mərhələli şəkildə həyata keçirilməsini təmin etmək;
- layihə sənədlərini hazırlaya bilmək və təqdim etmək;
- rəqəmsal texnologiyalar və ənənəvi üsullardan istifadə etməklə səhnə tərtibatını hazırlamaq;

- müasir rəqəmsal texnologiyalardan istifadə edərək (AutoCAD, SketUP, Photoshop və s.) səhnə layihələrini və dekorasiyalar hazırlaya bilmək;
- məkanlarda installyasiyalar qura bilmək;
- səhnə məkanlarının texniki təhcizatı və elektrotexnikanın əsaslarını bilməklə işıq avadanlıqlarını tanımaq və tətbiq edə bilmək;
- rejissorluğun və aktyor sənətinin əsaslarını bilərək quruluşçu rəssam və rejissorla işləməyi bacarmaq;

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| | İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|---|
| o | Səhnəqrafiya | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |

| | | |
|---|---|---|
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | |
| 3 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| 4 | **Akademik rəsm 1**<br>*Bu fənn tələbələrə naturadan insan fiquru (geyimli, çılpaq, bir, iki və ya üçfiqurlu tematik quruluş), təbiət və predmetlərin dəqiq, realistik və akademik təsvirini öyrədir. Bu fənn tələbələrin forma, proporsiya, perspektiv, işıq-kölgə, konstruktiv qurulma, stilizə etmə, anatomiya və plastikanı düzgün qavrama bacarıqlarını inkişaf etdirir və onları səhnəqrafik yaradıcılıq üçün zəruri təsviri vasitələrlə təmin edir. Məqsəd tələbələrdə müşahidə və praktiki qabiliyyətini gücləndirmək, peşəkar vizual ifadə bacarığını formalaşdırmaqdır.*<br>*Səhnəqrafiyada akademik rəsm fənni teatr-dekorasiya sənəti üzrə təhsil alan tələbələrin peşəkar hazırlığında əsas baza fənlərdən biridir.*<br>*Müxtəlif məkan həllərinin (interyer və eksteryer) rəsmlərdə perspektiv qanunlarına uyğun işlənməsi;*<br>*Səhnə dekorasiyası və geyim eskizlərinin hazırlanmasında zəruri olan konstruktiv rəsm bacarıqlarının mənimsənilməsi;*<br>*Teatr tamaşasının dekorativ həllinə uyğun olaraq realistik və ya şərti təsvir üsullarının öyrənilməsi.* | 6 |
| 5 | ***Akademik rəsm 2***<br>*Akademik rəsm 2 fənni - Bu fənnin əsas məqsədi tələbələrdə səhnəqrafiya ixtisası üzrə akademik rəsm bacarıqlarını inkişaf etdirmək, səhnə tərtibatının plastik həlli və obraz quruluşu üçün zəruri olan bədii və texniki bilikləri möhkəmləndirməkdir. Fənn səhnə dekorasiyası, kostyum eskizləri, məkan quruluşu və obraz plastikası kimi istiqamətlərdə akademik təsvir qabiliyyətinin formalaşmasına xidmət edir.*<br>*Tədris prosesində tələbələr insan fiquru, portret, məkanda fiqur kompozisiyası, işıq və kölgə əlaqələri, həcmin plastik quruluşu, proporsiyalar və perspektiv prinsiplərini dərindən mənimsəyirlər. Akademik rəsm təcrübələri tələbələrə səhnə personajlarının bədən plastikasını, emosional veziyyətini və hərəkət dinamikasını real təsvir etməyi öyrədir.* | 6 |
| 6 | **Səhnəqrafiyada kompozisiya 1**<br>*Bu fənn vasitəsilə tələbələr dekorasiya, kostyum, işıq və səhnə həcminin bir-biri ilə əlaqəli şəkildə qurulmasının bədii qanunauyğunluqlarını öyrənirlər. Məqsəd tamaşanın ideya-məzmununu vizual həllərlə ifadə etmək və yaradıcı səhnəqrafik bacarıqları inkişaf etdirməkdir.*<br>*“Səhnəqrafiyada kompozisiya” fənni magistr pilləsində tələbələrin səhnəqrafik yaradıcılıq fəaliyyətini dərinləşdirməyə, onların dramaturji* | 6 |

| | | |
|---|---|---|
| | *əsərin məzmununu, ideya-estetik yükünü səhnə məkanında ifadə etmək bacarığını formalaşdırmağa yönəlmişdir.*<br>*Dramaturji əsərin analizi və onun səhnə məkanında kompozisiya həllinin tapılması;*<br>*Tamaşanın ideyasına uyğun olaraq dekorasiya və kostyumların bədii birliyinin yaradılması;*<br>*Səhnə mizanı ilə dekorasiya elementlərinin qarşılıqlı əlaqəsi;*<br>*Obrazların xarakterinə və dramaturji situasiyaya uyğun vizual həllərin işlənməsi;*<br>*Tarixi və müasir səhnəqrafiya təcrübələrinin təhlili, müasir yanaşmaların tətbiqi;*<br>*Eskiz, maket və layihələrin hazırlanması, onların praktik icraya uyğunlaşdırılması.*<br>*Nəticə olaraq magistrant:*<br>*Dramaturji materialı analiz edərək onun səhnəqrafik həllini kompozisiya baxımından işləməyi;*<br>*Dekorasiya, kostyum və səhnə məkanını vahid vizual sistemdə birləşdirməyi;*<br>*Müxtəlif janr və üslublarda kompozisiya prinsiplərini tətbiq etməyi;*<br>*Müasir teatr texnologiyaları və rəqəmsal vasitələrdən istifadə etməklə yaradıcı layihələr hazırlamağı bacarır.* | |
| 7 | **Səhnəqrafiyada kompozisiya 2**<br>*Səhnəqrafiyada kompozisiya 2 fənni- Bu fənnin məqsədi tələbələrdə səhnəqrafik düşüncə və bədii kompozisiya bacarıqlarını inkişaf etdirmək, teatr və səhnə məkanının vizual həllini bədii bütövlükdə qurmaq qabiliyyətini formalaşdırmaqdır. Fənn səhnəqrafiya sənətinin əsas ifadə vasitələrindən biri olan kompozisiyanın nəzəri prinsiplərini və onların praktik tətbiqini öyrədir.*<br>*Tədris prosesində tələbələr səhnə məkanının quruluş qanunauyğunluqlarını, aktyor və dekorasiyanın qarşılıqlı əlaqəsini, tamaşa məkanında forma, işıq və rəng münasibətlərini dərindən araşdırırlar. Kompozisiya 2 mərhələsində tələbələr artıq ilkin səviyyədə qazandıqları bilikləri genişləndirərək səhnə mühitinin bədii təsir gücünü artıran kompozisiya elementlərini — balans, ritm, harmoniya, dinamika və miqyas anlayışlarını daha dərindən mənimsəyirlər.* | 6 |
| 8 | **Səhnə dekorasiya rəngkarlığı 1**<br>*Səhnə dekorasiya rəngkarlığı fənni – tələbələrə rəng, kolorit və işıq-kölgə, konstruktiv qurulma, stilizə etmə prinsiplərini öyrədərək dəqiq və estetik rəng təsviri bacarığını inkişaf etdirməyə yönəlmiş fənndir. Bu fənn tələbələrə naturadan insan fiquru (geyimli, çılpaq, bir, iki və ya üçfiqurlu tematik quruluş), təbiət və predmetlərin dəqiq, realistik və akademik təsvirini öyrədir. Məqsəd rəng vasitəsilə obraz yaratmaq və vizual ifadə səriştəsini formalaşdırmaqdır.* | 6 |

| | | |
|---|---|---|
| | "Səhnə dekorasiya rəngkarlığı" fənni magistr hazırlığında teatr üçün bədii-dekorativ mühitin yaradılmasına dair nəzəri və praktik biliklərin dərinləşdirilməsini nəzərdə tutur.<br>Səhnə dekorasiyası və interyerlərinin kolorit həllində rəng qanunlarının tədqiqi;<br>Fərqli materiallar, fakturalar və texniki üsullardan (tempera, akril, qarışıq texnika, yağlı boya, quaş və s.) istifadə;<br>Tarixi və müasir rəngkarlıq ənənələrinin səhnəqrafiyada tətbiqi;<br>Dramaturji vəziyyətə və rejissor yozumuna uyğun olaraq dekorativ rəngkarlıq üslublarının işlənməsi. | |
| 9 | **Səhnə dekorasiya rəngkarlığı 2**<br>Səhnə dekorasiya rəngkarlığı 2 fənni – Bu fənnin məqsədi tələbələrdə səhnə dekorasiyasının rəngkarlıq prinsipləri, texnikası və estetik həll yolları haqqında dərin nəzəri və praktik biliklər formalaşdırmaq, onları səhnə tərtibatının bədii ifadə vasitələri ilə işləməyə yönəltməkdir. Fənn səhnəqrafiyanın mühüm tərkib hissəsi olan dekorativ rəngkarlığın səhnə mühitində tətbiqi və tamaşa təsirinə xidmət edən vizual atmosferin yaradılması bacarığını inkişaf etdirir.<br>Tədris prosesində tələbələr səhnə dekorasiyasının kompozisiya quruluşunu, rəng həllini, işıqlandırma və ton münasibətlərini öyrənir, məkanda dərinlik illüziyası yaratmaq üçün perspektiv və rəng keçidlərinin imkanlarını araşdırırlar. Səhnə dekorasiyasının bədii tərtibatında rəngin emosional və dramaturji rolu xüsusi diqqət mərkəzində olur. | 6 |
| 10 | **Yaradıcılıq işinin hazırlanması 1**<br>Yaradıcılıq işinin hazırlanması fənni – tələbələrə fərdi ideya və konsepsiyaya əsaslanan sənət əsərləri və layihələr hazırlamağı öyrədən fənndir. Məqsəd yaradıcılıq bacarıqlarını inkişaf etdirmək, sərbəst yaradıcılıq işi (kompozisiya) qurma bacarığını aşılamaq, layihəni planlama və realizə etmə səriştəsini formalaşdırmaqdır.<br>Bu fənn magistrantlara müstəqil yaradıcılıq bacarıqlarını inkişaf etdirmək, əldə etdikləri praktik və nəzəri bilikləri yekun layihə şəklində tətbiq etmək məqsədi daşıyır. Fənn tələbələrə yaradıcılıq işinin konseptual ideyadan yekun icraya qədər bütün mərhələlərini planlaşdırmaq və həyata keçirmək imkanı verir.<br>Yaradıcılıq mövzusunun seçilməsi və elmi-tədqiqat planının hazırlanmasını;<br>Layihənin konseptual, kompozisiya və texnoloji eskizlərinin işlənməsini;<br>Seçilmiş material və texnologiyaların tətbiqini;<br>Yaradıcı prosesin mərhələli icrası və texniki həyata keçirilməsini;<br>Hesabatın hazırlanması və təqdimatını;<br>Mövcud nəzəri biliklərin və müasir təcrübələrin layihəyə inteqrasiyasını;<br>Yekun əsərin təqdimatı və müdafiəsi üçün sərgi və ya vizual materialların hazırlanmasını mənimsəməyə kömək edir. | 6 |

| | | |
|---|---|---|
| 11 | **Yaradıcılıq işinin hazırlanması 2**<br>*Yaradıcılıq işinin hazırlanması 2 fənni – Bu fənnin məqsədi tələbələrdə səhnəqrafik yaradıcılıq prosesinin əsas mərhələlərini müstəqil şəkildə planlaşdırmaq və həyata keçirmək bacarığını formalaşdırmaq, həmçinin teatr və səhnə sənətində bədii-təsviri düşüncə sistemini inkişaf etdirməkdir. Yaradıcılıq İşinin Hazırlanması 2 fənni tələbələrin əvvəlki mərhələlərdə qazandıqları nəzəri və praktiki bilikləri tətbiq edərək müstəqil səhnəqrafik layihə üzərində işləmələrini təmin edir.*<br>*Tədris prosesi tələbəni konseptual səviyyədə düşünməyə, dramaturji əsərin məzmununu bədii səhnə mühitinə çevirməyə və səhnə mizanının bədii strukturunu formalaşdırmağa istiqamətləndirir. Fənn çərçivəsində tələbə seçilmiş ədəbi əsər və ya tamaşa mövzusu əsasında səhnə tərtibatının ideya və kompozisiya əsaslarını müəyyən edir, dekorasiya və kostyum eskizlərini, işıqlandırma planlarını və səhnə maketlərini hazırlayır.* | 6 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | |
| 12 | **a) Kompüter texnologiyaları**<br>*Bu fənn tələbələrə səhnə sənətinin vizual dilini kompüter qrafikası vasitəsilə dərk etməyi və tətbiq etməyi öyrədən təcrübi tədris fənnidir. Fənn rəngkarlığın əsas prinsiplərini, işıq–kölgə və rəng kompozisiyalarının qurulması qaydalarını, tekstura və fakturaların rəqəmsal mühitdə yaradılması və tətbiqi üsullarını sistemli şəkildə əhatə edir. Tələbələr müasir kompüter qrafikası proqramlarından istifadə etməklə səhnə elementlərinin təsviri, modelləşdirilməsi və vizuallaşdırılması üzrə peşəkar bacarıqlar əldə edirlər.*<br>**b) İşgüzar xarici dil**<br>*Təhsil proqramının strukturu ümumi fənnlər bölməsində əks olunur və əsas fənnlər bölməsinin tərkibindədir. "İşgüzar xarici dil (ingilis dili)" fənni magistratura səviyyəsində təhsil alan tələbələrə ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyət və adət-ənənələrini, nitq etiketləri qaydalarını öyrədir. Xarici dildə lüğətin köməyi ilə* oxumaq və yazmaq vərdişlərinə, ali tədris müəssəsində tədris və tədqiqat işləri aparmağa yiyələndirir. | 6 |
| 13 | **a) 3 D qrafika**<br>*Bu fənn magistrantlara vizual ideyaları üçölçülü mühitdə yaratmaq, modelləşdirmək və vizuallaşdırmaq bacarıqlarını öyrədən təcrübi tədris fənnidir. Fənn 3D formaların qurulması prinsiplərini, obyektlərin detal və proporsiyalarının işlənməsini, material və tekstura tətbiqini, işıqlandırma və kölgə sistemlərinin qurulmasını, həmçinin səhnələrin vizual kompozisiyasını sistemli şəkildə əhatə edir. Magistrantlar müasir 3D qrafika proqramlarından (Blender, Maya, 3ds Max və s.) istifadə edərək obyektlərin modelləşdirilməsi, səhnələrin qurulması, render və post-production mərhələlərində peşəkar bacarıqlar əldə edirlər. Fənn həmçinin magistrantlara vizual estetikanı qoruyaraq ideyaları fotorealist və ya stilizə olunmuş şəkildə təqdim etmə imkanı yaradır.* | 6 |

| | | |
|---|---|---|
| | **b) Səhnənin rəqəmsal tərtibatı**<br>*Bu fənn magistrantlara səhnə məkanının müasir rəqəmsal vasitələrlə layihələndirilməsi və vizual həllinin hazırlanması bacarıqlarını aşılayan təcrübi dərsdir. Tədris prosesi boyunca səhnə quruluşunun kompozisiya prinsipləri, məkanın digital modelləşdirilməsi, işıqlandırma və rəng balansının rəqəmsal platformalarda qurulması sistemli şəkildə öyrədilir. Magistrantlar 3D modelləşdirmə, virtual məkanın yaradılması və səhnə elementlərinin rəqəmsal simulyasiyası kimi texnologiyalardan istifadə edərək səhnənin strukturunu, atmosferini və vizual estetikasını peşəkar səviyyədə formalaşdırma bacarığı əldə edirlər.* | |
| 14 | ***a) Rəngkarlıq əsərlərinin təhlili***<br><br>*Bu fənn rəngkarlığın tarixi inkişafı, texniki-material əsasları, kompozisiya və kolorit prinsipləri, monumental və dəzgah rəngkarlığının özünəməxsus xüsusiyyətləri, faktura və yaxma texnikaları, eləcə də əsərin bədii təhlili üçün metodoloji ardıcıllığı magistratura səviyyəsində elmi şəkildə öyrədir. Fənnin tədrisində rəngkarlığın ilk təsvir səthlərindən (qaya, papirus, perqament) başlayaraq kətan, ağac, mis lövhələrə, həmçinin freska, mozaika, vitraj kimi monumental texnikalara qədər keçdiyi tarixi mərhələlər xüsusi diqqətlə öyrənilir.*<br>*Fəndə rəngkarlıq texnikalarının işlənmə üsulları – pastel, akvarel, quaş, tempera, yağlı boya, freska, mozaika və vitraj texnikaları, onların koloritə, fakturaya və bədii-estetik nəticəyə təsiri sistemli şəkildə təhlil edilir. Materialın xüsusiyyətləri əsərin texniki və faktura həllini müəyyən edən əsas amillər kimi öyrənilir. Fənn tədrisində əsərin janrı, üslubu, texnikası, rəngkarlıq xarakteristikaları, kompozisiya sxemi, perspektiv və məkan həlli, işıq-kölgə sistemi, koloritin strukturu, ritmik təşkil, yaxmaların spesifikası, faktura və simvolik məqamlar mərhələli şəkildə araşdırılır.*<br>**b) Təsviri sənət əsərlərinin təhlili**<br>*Fənn magistratura səviyyəsində təsviri sənətin üç əsas sahəsi – qrafika, rəngkarlıq və heykəltəraşlıq üzrə əsərlərin elmi-analitik araşdırma prinsiplərini öyrədən kompleks fəndir. Fənn magistranta təsviri sənətin tarixi inkişaf mərhələlərini, texniki-material əsasları, forma və kompozisiya qanunauyğunluqlarını, bədii ifadə vasitələrinin semantik yükünü və üslubi tipologiyanı sistemli şəkildə təhlil etmə bacarığı qazandırır.*<br>*Fənn qrafikada xətt-plastikanın, ton-ləkə münasibətlərinin və çap texnikalarının; rəngkarlıqda kolorit sistemlərinin, işıq-kölgə həllinin, faktura və yaxma texnikalarının; heykəltəraşlıqda həcm, siluet, material və plastikanın rolunun elmi araşdırılmasını nəzərdə tutur. Tələbə təsviri sənət əsərlərinin texniki, struktur, üslubi və məzmun səviyyələrini mərhələli şəkildə təhlil etmə metodlarını mənimsəyir.*<br>*Fənnin əsas məqsədi müxtəlif təsviri sənət növlərində əsərin kompozisiya quruluşunu, texniki-tətbiqi əsaslarını, ikonoloji və ikonqrafik mənalandırma üsullarını, obrazın semantik sistemini, müəllif üslubunu və tarixi-mədəni* | 6 |

| | | |
|---|---|---|
| | *konteksti elmi baxımdan araşdırmaq və bu proseslərin nəticələrini peşəkar səviyyədə formalaşdırmaqdır.* | |
| **Təcrübə** | | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| **CƏMİ** | | **90** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir. Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Səhnəqrafiya ixtisaslaşması üzrə:***

Üçölçülü dekorasiya yaratmaq üçün 3D printerlər, rekvizitlər (məsələn, antik silahlar, mebellər) və xüsusi effektlər (yağış, qar) emalı üçün maşınlarla təchiz olunmuş taxta və dekorasiya sexləri; kostyum sexi (tikiş, parçalar rənglәmək, LED kostyumlar yaratmaq üçün avadanlıq, həmçinin tarixi nümunələrin saxlanması üçün otaqlar daxildir); üçölçülü makiyaj (örtmələr, protezlər) və işıq effektləri ilə işləmək üçün ixtisaslaşdırılmış otaqlar və makiyaj laboratoriyaları; Proyektorlar, LED ekranlar, video dekorasiya yaratmaq üçün proqram təminatı (məsələn, fiziki qanadların əvəzinə çoxqatlı proyeksiyalar) və səhnə işıqlandırmasının simulyasiyası; Virtual səhnələrin dizaynı və rəqəmsal kostyumları sınamaq üçün VR/AR laboratoriyaları; Hərəkətli platformalar,

dönər masalar, lyuk sistemləri və dinamik dəstlərin dəyişdirilməsi üçün barmaqlıqlar olan zallar; qurğular və tamaşalar üçün "Qara qutular"; ustadların eskizlərinin kolleksiyaları, kostyum və teatr memarlığı tarixinə dair arxivlər; tələbə işlərini nümayiş etdirmək (modellər, geyim eskizləri) və muzey eksponatlarını öyrənmək üçün sərgi zalları təmin edilməlidir.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. **Səhnəqrafiya** ixtisaslaşması üzrə magistratura təhsili almış mütəxəssis teatrlarda, sirklərdə kütləvi tədbir və tamaşalarda, fashion şoularında, musiq şou-konsertlərində, festivallarda, qapalı və açıq məkanlarda keçirilən fərqli tamaşa və kvestlərdə məkan tərtibatçısı, rəssam; repetitor; orta və ali təhsil müəssisələrində pedaqoq işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

***Səhnəqrafiya ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Rəngkarlıq sənəti ilə sənətşünaslıq elminin, o cümlədən səhnəqrafiyanın prinsiplərinə əsaslanaraq janr, mövzu dairəsinin genişlənməsini, yeni tip bədii təfəkkürün formalaşmasını, abstrakt təfəkkürün yenilənməsini və sənətin müasir problemlərini biləcək. Səhnəqrafiyanın müasir inkişaf tendensiyalarını biləcək. Verilmiş mövzu ilə əlaqədar səhnə tərtibatını təhlil edə biləcək. |
| **PTN 2.** Səhnə məkanında vizual konsepsiyanı müəyyən edə biləcək. Səhnə məkanında əsərlərinin estetik strukturunu dərindən anlayacaq və vizual həlləri peşəkar şəkildə hazırlayacaq. Dekorasiyanın kompozisiyasını, rəng-palitra münasibətlərini, forma və məkan yerləşimini planlaşdıracaq, vizual ardıcıllıq və ritm yaratmağı bacaracaq. Hadisələrin səhnə məkanında quruluşunu və ardıcıllığını peşəkarcasına təhlil edərək səhnə əsərinə estetik bütövlük və simvolik məna qazandırmağı bacaracaq. Səhnə tərtibatının əsaslarını bilərək səhnəni qurmağı bacaracaq (eskiz, maket yaratmaq, işıq və səslə işləmək bacarığı). |
| **PTN 3.** Dünya və Azərbaycan teatr tarixində formalaşmış səhnə tərtibatı üslublarını, tarixi geyim və məkan estetikasını təhlil edə biləcək. Müxtəlif dövrlərin estetik xüsusiyyətlərinə əsaslanaraq dekorasiya, kostyum və səhnə mühitinin bədii quruluşunu yaradacaq və onları müasir texniki vasitələrlə tətbiq etməyi bacaracaq. Teatr və digər səhnə quruluşlarına dair müasir tendensiyaları biləcək və təcrübədə tətbiq etməyi bacaracaq. Səhnə sənəti layihələrinin (tamaşa, performans, müasir incəsənət üzrə installyasiya, konsert səhnəsi və s.) yaradıcı və texniki aspektlərini planlaşdırmağı və koordinasiya etməyi bacaracaq. Səhnə maketlərini və dekorasiya eskizlərini hazırlayaraq vizual tərtibatın ilkin mərhələlərini formalaşdırmağı, layihənin bədii məqsədlərinə uyğun konsepsiya hazırlamağı və onun icrasına nəzarət etməyi bacaracaq. Səhnə üzrə rəssam peşəkar olaraq işçi heyətlə effektiv əməkdaşlıq quracaq, resursların bölgüsünü planlaşdıracaq və layihənin mərhələli şəkildə həyata keçirilməsini təmin etməyi bacaracaq. Layihə sənədlərini hazırlaya biləcək. |
| **PTN 4.** Rəqəmsal texnologiyalar və ənənəvi üsullardan istifadə etməklə səhnə tərtibatını hazırlamağı bacaracaq. Müasir rəqəmsal texnologiyalardan istifadə edərək (AutoCAD, SketUP, Photoshop və s.) səhnə layihələrini və dekorasiyalar hazırlaya biləcək. Məkanlarda installyasiyalar qura biləcək. Səhnə məkanlarının texniki təhcizatı və elektrotexnikanın əsaslarını bilməklə işıq avadanlıqlarını tanıyacaq və tətbiq edə biləcək. Rejissorluğun və aktyor sənətinin əsaslarını bilərək quruluşçu rəssam və rejissorla işləməyi bacaracaq. |
| **PTN 5.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Səhnəqrafiya sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| **PTN 6.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. Müəllif hüququ və peşə etikasını biləcək və fəaliyyətində tətbiq etməyi bacaracaq. |

| |
|---|
| **PTN 7.** Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirməyi bacaracaq. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq etməyi bacaracaq. |

| **Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etməyi bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihə fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |
| **Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |

| |
|---|
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |
| **Akademik rəsm 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik rəsmin əsas prinsiplərini, perspektiv və proporsiya qanunauyğunluqlarını öyrənəcək. |
| **FTN 2.** İnsan fiquru, portret, natürmort və məkan quruluşunun rəsmdə təsviri qaydalarını mənimsəyəcək. |
| **FTN 3.** İşıq-kölgə və ton vasitəsilə (qələmlə, kömürlə, sangina kimi materiallardan istifadə etməklə) həcmin verilməsini, kompozisiya quruluşunu dərk edəcək. |
| **FTN 4.** Kompozisiya qurmaq və obrazlı ifadə vasitələrindən istifadə bacarığına sahib olacaq. |
| **FTN 5.** Akademik rəsm biliklərini səhnəqrafiya sahəsində tətbiq etmə üsullarını anlayacaq. |
| **FTN 6.** Naturadan (geyimli, çılpaq, bir, iki və ya üçfiqurlu tematik quruluş) və yaddaşdan fiqur, interyer, eksteryer və dekorasiyanı düzgün proporsiyalarda təsvir edəcək. |
| **Akademik rəsm 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik rəsmin qanunauyğunluqlarını (forma, proporsiya, perspektiv, işıq-gölgə, ton və s.) dərindən öyrənəcək. |
| **FTN 2.** Ton, işıq və rəng münasibətlərinin səhnə atmosferinin formalaşmasında rolunu izah edəcək. |
| **FTN 3.** Səhnə eskizləri və layihələr üçün fiqur, portret və interyer rəsmlərini peşəkar səviyyədə hazırlaya biləcək. |
| **FTN 4.** Fiqurun həcmini, plastikasını və hərəkət ritmini dəqiq təsvir edəcək. |
| **FTN 5.** Akademik rəsm üsullarını səhnəqrafik tədqiqatlarda (eskiz, kompozisiya və s.) tətbiq edəcək. |
| **FTN 6.** Bədii ideyanı vizual formada əsaslandırmaq üçün analitik və yaradıcı düşüncə nümayiş etdirəcək. |
| **Səhnəqrafiyada kompozisiya 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Kompozisiya nəzəriyyəsinin əsaslarını və səhnəqrafiyada tətbiq prinsiplərini öyrənəcək. Tamaşa məkanında dekorasiya, kostyum, işıq və rəng münasibətlərinin qarşılıqlı təsirini dərk edəcək. |
| **FTN 2.** Klassik və müasir teatr səhnəqrafiyası nümunələrində kompozisiya həllərini təhlil edəcək. Dramaturji əsərin məzmununun səhnəqrafik kompozisiyaya necə çevrildiyini anlayacaq. |
| **FTN 3.** Tamaşanın ideyasına uyğun dekorasiya kompozisiyası qurmaq bacarığına yiyələnəcək. Səhnə məkanında miqyas, dərinlik və ritm əlaqələrini quracaq. |
| **FTN 4.** Eskiz və layihələrdə (maket) kompozisiya həllini rəsm, rəng və plastik vasitələrlə ifadə edəcək. |
| **FTN 5.** Səhnəqrafiyada kompozisiyasında tamaşaya uyğun geyim eskizləri üzərində axtarışlar aparılır, personajın xarakterini, sosial vəziyyətini və psixoloji durumunu açacaq. Tamaşanın janrına, dövrün üslubuna və estetik tələblərinə uyğun vizual təsir yaradacaq. |
| **FTN 6.** Əsərin dövrü, üslubu, tarixi geyim nümunələri və personajın xarakteri öyrəniləcək. Müxtəlif eskizlər üzərində fiqur, geyim forması, rəng və material həlli işləniləcək. Personajın tam geyim obrazını rəngli eskizdə təqdim etməyi bacaracaq. Geyimin hazırlanması üçün material, parça, naxış və tikiliş barədə qeydlər əlavə olunacaq. |

| Səhnəqrafiyada kompozisiya 2 fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Dekorasiya, işıq və rəng həlli ilə uyğunlaşdırılaraq səhnə bütövlüyünü təmin edəcək. Tamaşanın dramaturji gedişinə dəstək verəcək, obrazı tamaşaçıya vizual olaraq tanıdacaq. |
| **FTN 2.** Kompozisiyanın əsas prinsiplərini (ritm, dinamika, kontrast və s.) və onların səhnəqrafiyada tətbiqini dərindən biləcək. |
| **FTN 3.** Teatr səhnəqrafiyasında bədii məkanın və dekorasiyanın dramaturji funksiyasını anlayacaq. |
| **FTN 4.** Səhnə mühitində fiqur, dekor və işıq münasibətlərini məqsədyönlü şəkildə balanslaşdırmağı bacaracaq. |
| **FTN 5.** Müxtəlif teatr janrlarına (dram, opera, balet, musiqili teatr və s.) uyğun fərqli kompozisiya həlləri tətbiq edəcək. |
| **FTN 6.** Geyim eskizlərinin xüsusiyyətləri – obrazın xarakterini ifadə edən ümumi geyim quruluşu, personajın emosional ovqatını, dramaturji vəziyyətini dəstəkləyən rəng seçimi öyrəniləcək. Geyim aksesuarları (naxış, baş geyimi, ayaqqabı və s.) öyrəniləcək. Geyimin hərəkət zamanı səhnədə necə görsənəcəyini nəzərə alacaq. |
| **Səhnə dekorasiya rəngkarlığı 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Səhnə dekorasiyasının rəngkarlıq prinsiplərini və texnologiyalarını öyrənəcək. Perspektiv, proporsiya, işıq-kölgə və rəng münasibətlərinin səhnə dekorasiyasında rolunu dərk edəcək. |
| **FTN 2.** Teatr və kino səhnəqrafiyasının klassik və müasir nümunələrində dekorativ rəngkarlıq üsullarını mənimsəyəcək. |
| **FTN 3.** Kətan, karton, ağac və digər materiallar üzərində səhnə rəngkarlığı texnikalarında işləməyi bacaracaq. |
| **FTN 4.** Rəng təcrübəsi və nəzəriyyəsini, kolorit və rəng harmoniyasının qanunauyğunluqlarını mənimsəyəcək. İşıq–kölgə, ton və rəng keçidlərinin forma və məkan quruluşunda rolunu anlayacaq. Perspektiv və məkan təsvirinin rəngkarlıq vasitələri ilə ifadəsini öyrənəcək. |
| **FTN 5.** Klassik və müasir rəngkarlığın təcrübəsini səhnəqrafiya sahəsinə tətbiq etməyi dərk edəcək. |
| **FTN 6.** Naturadan (geyimli, çılpaq, iki və ya üçfiqurlu tematik quruluş) rəngkarlıq etüdləri və kompozisiyaları işləyəcək. Müxtəlif materiallar və texniki üsullarla (yağlı boya, akril, tempera və s.) işləmə bacarığı qazanacaq. |
| **Səhnə dekorasiya rəngkarlığı 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Səhnə dekorasiyasında rəngkompozisiya və dekorativ həllərin estetik və funksional bütövlüyünü təmin edəcək. |
| **FTN 2.** Ənənəvi texnikalarda səhnə dekorasiyası üçün rəng eskizləri və layihələr hazırlamağı bacaracaq. |
| **FTN 3.** Səhnə texnologiyalarında rəng həllərinin tətbiqi üzrə praktiki və analitik bacarıqlara malik olacaq. |
| **FTN 4.** İşıq və rəng münasibətlərinin səhnə atmosferinə təsirini analiz edə biləcək. |
| **FTN 5.** Rəng nəzəriyyəsini (rəng harmoniyası, kontrastlar, rəngin psixoloji təsiri, ton) səhnə dekorasiyasında tətbiqini biləcək. |
| **FTN 6.** Dekorativ səhnə elementlərini (arxa fon, dekorativ obyektlər, kostyum və aksesuarlar) rəng baxımından əlaqələndirəcək. |
| **Yaradıcılıq işinin hazırlanması 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Əsər dramaturji (mövzusu, ideyası, obrazları, konfliktləri) təhlil edəcək. Müəllifin yaradıcılığı və dövrü haqqında araşdırma apara biləcək. |

| | |
|---|---|
| **FTN 2.** Əsərin səhnələşdirilmə tarixindən (əgər varsa) məlumat verə biləcək. Teatr nəzəriyyəsi və səhnəqrafiya prinsiplərinə istinad edəcək. |
| **FTN 3.** Dramaturgiya, rejissor sənəti, səhnə tərtibatı və vizual estetika arasında əlaqələri izah edə biləcək. |
| **FTN 4.** Dramaturji əsər, opera və ya baletdən bir nümunə seçiləcək. Əsərin ideyası, mövzusu və əsas konfliktləri nəzərə alınacaq. Əsərin bədii-təhlil ediləcək. |
| **FTN 5.** Əsərdəki məkan, zaman, psixoloji mühit araşdırılacaq. Obrazların xarakteri və geyim tələbləri müəyyənləşdiriləcək. |
| **FTN 6.** Səhnə məkanının bədii quruluşu, işıq-rəng həlli, material və texnologiyaların xüsusiyyətlərini anlayacaq. |
| **Yaradıcılıq işinin hazırlanması 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İşıq-rəng həlli düzgün vermə bacarığını gücləndirəcək (səhnənin emosional təsiri üçün). |
| **FTN 2.** Dram əsərinin məzmununa, janrına və rejissor konsepsiyasına uyğun səhnəqrafik həll hazırlaya biləcək. |
| **FTN 3.** İşıqlandırma, rəng və məkan elementlərini bədii ideyaya uyğun əlaqələndirəcək. |
| **FTN 4.** Milli-mədəni dəyərləri və bədii ənənələri müasir səhnəqrafik dilə uyğun şəkildə təqdim edə biləcək. |
| **FTN 5.** Seçilmiş dekorasiya həlli əsasında ölçülü maket hazırlaya biləcək. Əlavə olaraq eskizlərin rəngli formatda işlənməsi və albom şəklində tərtib olunmasını bacarıqlarını gücləndirəcək. |
| **FTN 6.** Səhnə məkanını bədii, texnoloji və funksional baxımdan qurmaq bacarığını inkişaf etdirəcək, fərdi yaradıcılıq üslubunu formalaşdıracaq və öz konseptual səhnə tərtibat layihəsini müstəqil şəkildə həyata keçirə biləcək. |
| **Kompüter texnologiyaları fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Rəqəmsal kompüter qrafikasının əsas anlayışlarını mənimsəyəcək və onların səhnə sənətində tətbiqini izah edəcək. |
| **FTN 2.** Rəqəmsal rəng nəzəriyyəsi, harmoniyalar və rəng psixologiyasını məqsədyönlü şəkildə tətbiq edəcək. |
| **FTN 3.** İşıq–kölgə, həcm və atmosfer dərinliyi yaratmaq üzrə praktiki bacarıqlar əldə edəcək. |
| **FTN 4.** Rəqəmsal tekstura və faktura yaratma metodlarını tətbiq edəcək və səhnə obyektlərinin vizual xarakterini dəqiq ifadə edəcək. |
| **FTN 5.** Müasir qrafika proqramlarında modelləşdirmə və vizuallaşdırma proseslərini icra edəcək. |
| **FTN 6.** Render, post-processing və səhnə üçün vizual materialların hazırlanması sahəsində peşəkar yanaşma formalaşdıracaq. |
| **İşgüzar xarici dil fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik yazı və danışıq qaydalarını, elmi dürüstlük prinsiplərini izah edə biləcək. |
| **FTN 2.** Elmi məqalənin strukturu və əsas komponentlərini sadalaya biləcək. |
| **FTN 3.** Akademik və işgüzar sənədləri (məktub, müraciət, CV, hesabat və s.) xarici dildə düzgün tərtib edə biləcək. |
| **FTN 4.** Esse yazma qaydalarını tətbiq edərək müxtəlif mövzularda esse hazırlaya biləcək. |
| **FTN 5.** Elmi məqalələri struktur, məzmun və üslub baxımından təhlil edə biləcək. |
| **FTN 6.** Nəşr etikası normalarını (istinad, müəlliflik hüquqları, plagiat) qiymətləndirə və öz işində tətbiq edə biləcək. |

| 3 D qrafika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** 3D qrafikanın əsaslarını mənimsəmək üçün Blender, 3ds Max, Maya və Cinema 4D kimi proqramlarla tanış olacaq və obyektlərin modelləşdirilməsi üsullarını öyrənəcək. |
| **FTN 2.** Eskiz və konsept işləri əsasında obyektlərin forma, proporsiya və ölçülərini müəyyən edəcək, səhnədə yerləşdirilmə və perspektiv quruluşu planlaşdıracaq. |
| **FTN 3.** Materialları və teksturaları Substance Painter, Photoshop və ya Quixel Suite vasitəsilə hazırlayacaq və modellərə tətbiq edəcək, realistik və ya stilizə edilmiş görünüş yaradacaq. |
| **FTN 4.** İşıqlandırma sistemini və kölgə effektlərini quraraq səhnənin atmosferi, vizual tarazlığı və dərinliyini formalaşdıracaq. |
| **FTN 5.** Hazırlanan səhnə və modelləri V-Ray, Cycles, Arnold və ya Lumion kimi render mühərriklərində fotorealist və ya stilizə olunmuş vizuallaşdırmalarda təqdim edəcək. |
| **FTN 6.** Post-production mərhələsində rəng düzəlişləri, işıq optimizasiyası və detal zənginləşdirməsi aparacaq, final səhnəni təqdimata hazır vəziyyətə gətirəcək. |
| **Səhnənin rəqəmsal tərtibatı fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Səhnənin rəqəmsal tərtibatını hazırlamaq üçün Blender, Maya və SketchUp kimi 3D proqramlarla tanış olacaq və səhnə elementlərini modelləşdirəcək. |
| **FTN 2.** Rəqəmsal eskizlər və planlar əsasında səhnənin ölçüləri, mövqeləri və perspektiv quruluşunu müəyyən edəcək. |
| **FTN 3.** Materiallar və teksturaları Substance Painter və Photoshop vasitəsilə hazırlayacaq və səhnəyə tətbiq edəcək. |
| **FTN 4.** Səhnədə işıqlandırma və kölgə sistemləri təyin olunacaq, vizual tarazlıq və atmosfer formalaşdırılacaq. |
| **FTN 5.** Hazırlanan səhnələr V-Ray, Lumion və ya Cycles kimi render mühərriklərində fotorealist görüntülərlə vizuallaşdırılacaq. |
| **FTN 6.** Post-production mərhələsində rəng, işıq və detallar optimallaşdırılır, səhnə təqdimata hazır vəziyyətə gətiriləcək. |
| **Rəngkarlıq əsərlərinin təhlili fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Rəngkarlığın texniki-material əsaslarını elmi səviyyədə izah edəcək və müxtəlif rəngkarlıq texnikalarının xüsusiyyətlərini təhlil edəcək, onların bədii-estetik nəticələrini qiymətləndirəcək. |
| **FTN 2.** Rəngkarlıq tarixinin mərhələlərini sistemləşdirəcək: perqament dövrü, kətanın yayılması, yağlı boyanın inkişafı, monumental rəngkarlığın (freska, mozaika) formalaşması, dəzgah rəngkarlığının texniki və estetik təkamülü kimi prosesləri elmi əsaslarla şərh edəcək. |
| **FTN 3.** Rəngkarlıq əsərinin ümumi təhlili zamanı müəllif, tarix, janr, üslub, texnika, süjet, simvolika, işıq, səthilik, rəng xarakteristikası, bədii məkan və struktur parametrlərini ardıcıllıqla müəyyənləşdirəcək və təhlil edəcək. |
| **FTN 4.** Rəngkarlığın konkretləşdirilmiş təhlil mərhələlərini tətbiq edəcək: kompozisiya sxemi, format-tipologiyası, perspektiv, məkan planları, baxış rakursları, işıq-kölgə sistemi, kolorit strukturu, rəngin emosional təsiri, ritmik təşkil və yaxma texnikasını yüksək səviyyədə təhlil edəcək. |
| **FTN 5.** Rəngkarlıq üslublarının tipologiyasını müqayisəli şəkildə müəyyənləşdirəcək. Erkən xristian və Bizans rəngkarlığı, Təbriz miniatür məktəbi, Renessans, Barokko, Klassisizm, Romantizm, |

| |
|---|
| Realizm, İmpressionizm, eləcə də digər üslub və cərəyanları, həmçinin Azərbaycan rəngkarlıq məktəbinin istiqamətlərini metodoloji baxımdan dəyərləndirəcək. |
| **FTN 6.** Rəngkarlıq əsərlərinin kompleks elmi təhlili zamanı ikonoloji-ikonqrafik şərh, obrazın semantik sistemi, janr və üslub mənsubiyyəti, motivin məzmun oxunuşu, faktura həllinin rolu və emosional təsir mexanizmlərini elmi formada müstəqil şəkildə əsaslandıracaq. |
| **Təsviri sənət əsərlərinin təhlili fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Təsviri sənətin əsas sahələrinin – qrafika, rəngkarlıq və heykəltəraşlığın tarixi və texniki inkişaf mərhələlərini sistemləşdirəcək və onların bədii-estetik prinsiplərini elmi əsaslarla izah edəcək. |
| **FTN 2.** Təsviri sənətin növlərinə aid material və texnikaların - qrafik texnikalar (quru və sulu üsullar, çap texnikaları), rəngkarlıq texnikaları (tempera, yağlı boya, akvarel, freska, mozaika) və heykəltəraşlıq texnikaları (yonma, yapma, tökmə) - xüsusiyyətlərini təhlil edəcək və bu xüsusiyyətlərin əsərin bədii nəticəsinə təsirini müəyyənləşdirəcək. |
| **FTN 3.** Təsviri sənət əsərlərinin kompozisiya-struktur təhlilini aparacaq: xətt, ton, rəng, faktura, kolorit, həcm, məkan, perspektiv, balans, ritm, dinamika və siluet kimi elementlərin funksiyasını elmi metodlarla şərh edəcək. |
| **FTN 4.** Üslubi və məktəb ənənələrini müqayisəli şəkildə dəyərləndirəcək: Şərq və Qərb bədii məktəblərinin, müxtəlif klassik və modern istiqamətlərin, eləcə də Azərbaycan təsviri sənətinin əsas üslub xüsusiyyətlərini identifikasiya edəcək və təhlildə tətbiq edəcək. |
| **FTN 5.** Təsviri sənət əsərlərinin ideya-məzmun və semantik təhlilini aparacaq: ikonoloji və ikonqrafik metodlardan istifadə etməklə obrazın mənalandırılmasını, simvolik qatların açılmasını, motivin tarixi və mədəni kontekstlə əlaqəsini müəyyənləşdirəcək. |
| **FTN 6.** Təsviri sənət əsərlərinin kompleks elmi təhlilini müstəqil şəkildə formalaşdıracaq: texniki, kompozisiya, üslub, məzmun və kontekst analizlərini birləşdirərək peşəkar sənətşünaslıq nəticələri hazırlayacaq və onları elmi-nəsr üslubunda təqdim edəcək. |
| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| **FTN 2.** Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| **FTN 3.** Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| **FTN 4.** Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| **FTN 5.** Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| **FTN 6.** Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 |
| Akademik yazı və etika | | | | | | x | |
| Layihələrin idarə olunması | | | | | | | x |
| Ali məktəb pedaqogikası və psixologiya | | | | | x | | |
| Akademik rəsm 1 | x | x | x | | | | |
| Akademik rəsm 2 | x | x | x | | | | |
| Səhnəqrafiyada kompozisiya 1 | x | x | x | | | | |
| Səhnəqrafiyada kompozisiya 2 | x | x | x | | | | |
| Səhnə dekorasiya rəngkarlığı 1 | x | x | x | | | | |
| Səhnə dekorasiya rəngkarlığı 2 | x | x | x | | | | |
| Yaradıcılıq işinin hazırlanması 1 | | | x | x | | | |
| Yaradıcılıq işinin hazırlanması 2 | | | x | x | | | |
| Kompüter texnologiyaları | x | x | x | x | | | |
| İşgüzar xarici dil | | | | | | x | |
| 3 D qrafika | x | x | | x | | | |
| Səhnənin rəqəmsal tərtibatı | x | x | | x | | | |
| Rəngkarlıq əsərlərinin təhlili | | | | | x | | |
| Təsviri sənət əsərlərinin təhlili | | | | | | | x |
| Elmi-pedaqoji təcrübə | | | | | x | x | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Təsviri sənət kafedrasının müdiri:** ____________ **Rəşad Cabarov**

**ADMİU-nun Rəssamlıq fakültəsinin dekanı:** ____________ **Səyalı Quliyeva**